**R.A.Həşimov**
*magistrant, Bakı Avrasiya Universiteti*
**Hashimov.rasul567@outlook.com**

*Məqalə redaksiyaya daxil olub:11.04.23*
*The article was received by editorial board on: 11.04.23*
*Статья принята к печати: 11.04.23*

# AZƏRBAYCANDA SƏNAYENİN İNKİŞAFINA YÖNƏLİK İNNOVASİYA FƏALİYYƏTİNİN STİMULLAŞDIRILMASI İSTİQAMƏTLƏRİ

**Xülasə**

*Məqalə Azərbaycanda sənayenin inkişafına yönəlik innovasiya fəaliyyətinin stimullaşdırılması istiqamətlərinin araşdırılmasına həsr olunmuşdur. Məqalədə innovasiyalı inkişafın mahiyyəti və əhəmiyyəti, ölkə sənayesində innovasiya fəaliyyətinə təsir edən amilləri araşdırılmış və ölkə sənayesində innovasiya fəliyyətinin stimullaşdırılmasına dair təklif və tövsiyələr verilmişdir.*

***Açar sözlər:*** *sənaye, innovasiyya fəliyyəti, investisiya, texnopark, innovasiya ekosistemi, milli innovasiya sistemi.*

## GİRİŞ

Dünya iqtisadiyyatının qloballaşması, ənənəvi inkişaf amillərinin rolunun azalması, məhdud resurslar, bir sıra yeni problemlərin ortaya çıxması həm təsərrüfat subyektlərinin həm də bütün dünya ölkələri və bölgələri üçün rəqabətin güclənməsinə səbəb olur. Belə şəraitdə, milli iqtisadiyyatı qloballaşan dünya iqtisadiyyatının bir hissəsinə çevirilməsi ölkə iqtisadiyyatını innovativ inkişaf səviyyəsindən asılıdır. Azərbaycan özünün siyasi müstəqilliyini elan etdikdən sonra iqtisadi cəhətdən sürətli inkişafa nail olmuşdur. Lakin, bu sürətli artım əsasən ölkədə həyata keçirilən uğurlu neft strategiyasının və neft sektorunun hesabına baş vermişdir. Neft hasilatı geniş mənada elm və innovasiya tutumlu hesab edilmədiyindən bu sektorun iqtisadiyyatda dominantlığı müasir innovasiya iqtisadiyyatına keçid vasitəsilə davamlı iqtisadi inkişafı ləngidir. Çünki, bütün resurslar və investisiyalar bu sektora yönəlir, və ya xidmət sektoruna (4. səh 30). Hazırda Azərbaycan iqtisadiyyatının qarşısında duran əsas vəzifə milli iqtisadiyyatımızın innovativ inkişafının təmin edilməsidir.

Dünya Əqli Mülkiyyət Təşkilatının (WIPO) Qlobal İnnovasiya İndeksinin (GII) 2021-ci il nəşrində Azərbaycan mövqeyini yaxşılaşdırıb. Beləki, cari ilin sentyabrın 20-də Cenevrədə nəşr olunan reytinqdə Azərbaycan 132 ölkə arasında 80-ci yerdə qərarlaşmışdır. 2020 -ci ildə isə Azərbaycan 82 -ci yerdə idi. Ayrı-ayrı sahələr üzrə QİI qiymətləndirməsinə baxsaq, İnsan kapitalı və araşdırma üzrə Azərbaycan 89-cu, infrastruktur üzrə 88-ci, elm və texnologiya üzrə 115-ci yerdədir, ancaq bazarın keyfiyyətinin yaxşılaşdırılması üzrə göstəricidə 36-cı yerdədir.

Lakin, bütün bu müsbət yönümlü meyillərə baxmayaraq, Azərbaycan Respublikasında innovasiya fəaliyyətinin müasir durumu inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrlə müqayisədə öz zəifliyi ilə nəzərə çarpmaqdadır. Dövlət Statistika Komtəsinin məlumatına görə 2021-ci ildə ölkədə istehsal olunan sənaye məhsulunun təqribən 0,1 faizini innovasiya məsulu təşkil etmişdir. Ölkənin bu mühüm və aparıcı sahəsindəki geriliyi aradan qaldırmaq, onun qlobal innovasiya mühiti ilə ayaqlaşmasını, milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyini təmin etmək üçün olkədə sənaye müəssisələrində innovasiya fəaliyyətinin inkişaf etdirilməsi xüsusi zərurətdən irəli gəlir.

İkinci Dünya Müharibəsindən sonra sürət qazanan texnoloji inkişaflar səbəbindən ölkələr arasında iqtisadi, sosial və mədəni sahələrdə bəzi fərqlər meydana çıxmışdır. Texnoloji inkişaflar və innovativ proseslərlə kifayət qədər qidalanan ölkələr rifah səviyyələrini artıra bilmişlər, lakin bu proseslərdən daha az faydalanan ölkələrin rifah səviyyələrində ciddi bir artım olmamışdır. Ölkələr arasındakı inkişaf fərqlərinin tədricən artması, az inkişaf etmiş ölkələrdə inkişaf problemini ortaya çıxardı. Eyni zamanda 1980-ci illərdən sonra xüsusilə informasiya texnologiyaları və innovativ proseslərdə baş verən dəyişikliklər inkişafa və böyüməyə marağın artmasına səbəb olmuşdur.

Annoni və Kozovska (2010) və Lopez-Claros və Mata (2010) tərəfindən aparılan araşdırmalarda inkişaf üç mərhələyə bölünür: amillərə əsaslanan iqtisadiyyat, investisiya (məhsuldarlığa) əsaslanan iqtisadiyyatı və innovasiyaya əsaslanan iqtisadiyyat (7).

**Amillərə əsaslanan iqtisadiyyat:** İnkişafın ən aşağı mərhələsindəki iqtisadiyyat amillərə əsaslanan iqtisadiyyat olaraq təyin olunur və əsasən bacarıqsız əmək və təbii resurslar tərəfindən idarə olunur. Amillərə əsaslanan iqtisadiyyat mərhələsində ölkələr texnologiyaları özü inkişaf etdirmək əvəzinə digər ölkələrdən alırlar. Bu mərhələdə ölkələrin az inkişaf etmiş insan kapitalı ölkənin innovasiya qabiliyyətinin və sabit məhsuldarlıq artımının qarşısını alır. Bu ölkələr əsasən beynəlxalq bazarlarda qiymət alan ölkələr olduqları üçün ticarət dövriyyəsindəki dalğalanmalara, məzənnə hərəkətlərinə və ya ticarətdə kəskin dəyişikliklərə səbəb ola biləcək digər xarici şoklara qarşı həssasdırlar. Bu ölkələrdə yüksək səviyyədə korrupsiya var. Bundan başqa, hüquqi çərçivə və qanunun aliliyi zəifdir, dövlət idarəçiliyinin keyfiyyəti nisbətən aşağıdır və nəticədə pis makroiqtisadi vəziyyət yaranır.

**İnvestisiya/məhsuldarlığa əsaslanan iqtisadiyyat:** Bu mərhələdə iqtisadiyyatın infrastrukturunun modernləşdirilməsində investisiyaların əhəmiyyətindən bəhs edilir. M.Porterə (1990) görə, firmalar qlobal bazarlarda mövcud olan ən yaxşı texnologiya ilə təchiz olunmuş, müasir, səmərəli və tez-tez irimiqyaslı obyektlərə sərmayə qoyacaqlar (12). Digər ölkələrdən idxal olunan texnologiyalar ancaq əsas texnologiyaları deyil, həm də ən son texnologiyaları əhatə edəcək şəkildə genişləndirilməlidir. Bu mərhələnin əsasını təşkil edən əsas mövzu, firmaların bacarıqlı işçilərin ortaya çıxması və məhsuldarlığın artırılmasında çox əhəmiyyətli olan təhsil və təlim kimi faktorlara sərmayə qoymasıdır. Burada təcrübəli işçilər idxal olunan texnologiyaları mənimsəyir və inkişaf etdirir və ya yerli şəraitə uyğunlaşdırırlar. Yuxarıda göstərilən mərhələdə şirkətlər üçün xərc faktorları əhəmiyyətli olmağa davam edir. Bu mərhələnin üstün tərəfi, resurslardan daha səmərəli istifadə etməyi hədəfləyən investisiyaların, ümumiyyətlə rifah təmin etmək üçün istifadə olunan iqtisadi qaynaqlara müxtəliflik gətirməsidir. Bu mərhələdə hökumətlər maliyyə dayanıqlılığı məsələlərinə diqqət yetirir və sosial təminat sistemi üçün daha güclü maliyyə əsası yaratmaq üçün pensiya islahatı həyata keçirirlər. Eyni zamanda, bu hökumətlər ali təhsilin infrastrukturunu əhəmiyyətli dərəcədə yaxşılaşdırmağı və özəl sektorun inkişafında daha çox dəstək rolunu oynayan bir dövlət idarəetmə quruluşu yaratmağı hədəfləyir. Bu mərhələdə olan bir ölkə, sektora xas xarici tələbat zərbələrinə və maliyyə böhranlarına həssasdır.

**İnnovasiyaya əsaslanan iqtisadiyyat:** İnkişafın ən yüksək mərhələsində olan iqtisadiyyatlar innovasiyaya əsaslanan iqtisadiyyatlar kimi müəyyən edilir. Bu mərhələdə sahibkarlıq və innovasiya faktorları daha çox üstünlük təşkil edir. Bu mərhələdəki ölkələrin vətəndaşları amillərə əsaslanan və ya investisiya/məhsuldarlığa əsaslanan ölkələrdəki vətəndaşlara nisbətən daha yüksək gəlirlərə və orta hesabla daha yüksək təhsil səviyyəsinə malikdirlər. Bu yüksək gəlir və təhsil səviyyəsi inkişaf və innovasiyaya tələbat yaradır. İnnovasiyaya əsaslanan iqtisadiyyat mərhələsində firmalar mövcud texnologiyadan istifadə etməyə və təkmilləşdirməyə və yeni texnologiyalar istehsal etməyə davam edirlər. Müvafiq tələb şərtləri, təchizatçı bazası və ölkədə müvafiq sənayelərin olması firmalara bu innovasiyanı yeniləməyə və davam etdirməyə imkan verir. İnnovasiyaya əsaslanan iqtisadiyyatda fəaliyyət göstərən firmaların öz marketinq və təchizat şəbəkələri var. Bu firmalar yalnız giriş mənbələri və bazar satışları deyil, həm də işçi qüvvəsi təklifi, maliyyə mənbələri və istehsal sahəsinin resursları baxımından əhəmiyyətli investorlar və qlobal oyunçular olacaqlar. Texnoloji inkişafı təmin etmək üçün ölkələrin beynəlxalq aləmdəki fəaliyyətləri yaxından təqib edilməli və şirkətlər təşviq edilməlidir. İnnovasiya mərhələsində dövlətin rolu əvvəlki mərhələlərə nisbətən daha məhduddur. Lakin bu, innovasiyaya əsaslanan iqtisadiyyatlarda dövlətin informasiya texnologiyaları siyasətini inkişaf etdirməkdə heç bir təsiri olmadığı anlamına gəlmir.

Sürətlə artan və qloballaşan rəqabət, mənfəət nisbətlərinin azalması, məhsulun ömrünün qısalması, davamlı və genişmiqyaslı dəyişikliklər, xüsusilə texnoloji ağırlıqlı məhsul istehsal edən sahələrdə innovasiya etmək üçün təzyiq yaradır. Bu mühitə uyğunlaşmaq, rəqabət üstünlüyü qazanmaq və istehsal xərclərini azaldaraq mənfəəti artırmaq üçün firmalar yeni məhsulları, prosesləri və metodları dəstəkləyəcək təşkilati quruluşları (mühitləri) inkişaf etdirmək və məhsullarını rəqiblərindən qabaq bazara şıxarmaq məcburiyyətindədirlər. İnnovasiya hər keçən gün yeni və fərqli məhsullar hazırlamaqda firmalar üçün öz əhəmiyyətini artırır. Hattori və Vaykoffa görə, mövcud xaotik mühitdə yaşamaq və həyatda qala bilmək daha çox yenilikçi olmağa bağlıdır. Uzun illərdir ki, təşkilat nəzəriyyəçiləri və ölkəni idarə edənlər

innovasiyanın təşkilatlara davamlı rəqabət üstünlüyü təmin etməkdə və ölkələrin inkişafında rolunu elmi araşdırmalarda və siyasət sənədlərində qeyd edirlər (12). Bu düşüncədə olan dövlətlər və firmalar yeniliklər yaratmaq və yenilikçi bir mədəniyyət formalaşdırmaq üçün əhəmiyyətli qaynaqlar ayırırlar. Xüsusilə, elm və yüksək texnologiyaya əsaslanan sektorlar, yüksək əlavə dəyər yaratma potensialına görə, inkişaf etmiş cəmiyyətlərin rifah əldə etməsi və davamlı hala gətirməsi üçün bir vasitə kimi innovasiyadan istifadə edir.

1980 və 1990-cı illərdə iqtisadçıların iqtisadi artımda və texnologiyada informasiya və texnologiyanın roluna marağı artmışdır. Ölkələr arasındakı iqtisadi inkişaf fərqlərini izah etmək üçün ortaya çıxan yeni artım nəzəriyyəsi nəzəri cəbhədə əhəmiyyətli bir inkişaf oldu. Bu nəzəriyyəyə görə, ölkələr arasındakı inkişaf fərqləri milli sərhədlər daxilində endogen biliklərdəki fərqliliklərdən qaynaqlanır. Yeni artım nəzəriyyəsi yanaşmasına görə, uzunmüddətli iqtisadi artım əsasən əlverişli şəraitdən və intellektual mülkiyyət hüquqlarının tətbiqindən asılıdır. Həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrdə intellektual mülkiyyət hüquqlarına və bu hüquqların ortaq əlaqələrinə artan maraq böyük ölçüdə iqtisadi nəzəriyyədəki dəyişikliyi əks etdirir. Üstəlik, bu nəzəriyyə böyük ölkələrin kiçik ölkələrdən daha çox innovasiya fəaliyyəti ilə məşğul olacağını və innovasiyadan daha çox faydalanacağını proqnozlaşdırır. Bundan əlavə, bu yanaşmaya görə, sərbəst ticarətlə məşğul olmaq və beynəlxalq kapital axınlarına liberal münasibət bəsləməklə miqyaslı dezavantajları aradan qaldırmaq mümkündür. Bu səbəbdən, ticarətə açıqlıq və xarici investisiyalar inkişaf etmiş ölkələrə yetişməyi hədəfləyən ölkələr üçün çox vacibdir.

Dünya Əqli Mülkiyyət Təşkilatının (WIPO) Qlobal İnnovasiya İndeksinin (GII) 2021-ci il nəşrinə görə yalnız bir neçə iqtisadiyyat ardıcıl olaraq ən yüksək innovasiya performansını təmin etmişdir:

• İsveçrə, İsveç, ABŞ və İngiltərə son üç ildə ilk 5 -likdə yer almış, Koreya Respublikası isə 2021 -ci ildə ilk dəfə olaraq QİI -nin ilk 5 -liyinə daxil olmuşdur.

• QİI -nin ən yenilikçi 25 iqtisadiyyatının əksəriyyəti Avropadan olmağa davam edir.

• İlk 15 -lik arasında beş Asiya iqtisadiyyatı var - Koreya Respublikası (5 -ci) və Sinqapur (8 -ci) ilk 10 -luqda, onu isə ardınca Çin (12 -ci), Yaponiya (13 -cü) və Hong Kong izləyir (13).

Müasir şəraitdə ölkələrin innovativ inkişafı həmin ölkələrdə fəaliyyət göstərən firmaların innovasiya fəaliyyətlərinin aktivliyindən aslıdır. Firmaların innovasiya etməsinə bir çox amillər səbəb olur. İnnovasiyanın səbəbləri ümumiyyətlə "bazar/istehlakçı ehtiyaclarını gözləmək və bu ehtiyacları yeni məhsullar, xidmətlər və üstün keyfiyyətlə daim təmin etmək" dir. Bu ehtiyacları qarşılayarkən, "istehlakçı, rəqabət, cəmiyyət və təşkilat" amilləri ilə əməkdaşlıq etmək vacibdir. Yeniliyin səbəbləri aşağıdakı kimi ifadə edilə bilər:

• bazar payının artırmaq;
• məhsul və xidmət keyfiyyətini artırmaq;
• qaydalara və standartlara riayət etmək;
• istehsal elastikliyinin təmin edilməsi;
• əmək xərclərinin azaldılması;
• material istehlakının azaldılması;
• enerjiyə qənaət;
• ətraf mühitin mühafizəsi;
• müştəri istəklərində dəyişiklik;
• texnoloji inkişaflar;
• rəqiblərin innovasiya fəaliyyəti və s.

Hər bir ölkədə istər makro və istərsədə mikro səviyyədə innovasiyanın inkişafı həmin ölkədəki innovasiya ekosisteminin inkişaf səviyyəsindən aslı olur. İnnovasiya ekosistemi, bioloji ekosistem kimi, xarici qüvvələrə qarşı müqaviməti, elastikliyi və funksional səriştəsi sayəsində davamlılığı qoruyur. İnnovasiya ekosistemi iqtisadi institutlar və iqtisadi əlaqələr komponentlərindən ibarətdir. İnnovasiya ekosistemi təkcə iqtisadiyyat sahəsində deyil, texnologiya, mövcud qurum və təşkilatlar, sosial əlaqələr və mədəniyyət kimi iqtisadiyyat sahəsindən kənar məsələlərdən də təsirlənir. Yüksək inkişaf etmiş innovasiya ekosistemi fəaliyyət göstərən şəxslərə innovasiya biliklərinin ötürülməsinə imkan verir. Bir sözlə, innovasiyaya toxunan və onunla əlaqə saxlayan hər kəs ekosistemin bir hissəsinə çevrilir. İnnovasiya ekosistemi müəyyən bir zaman və məkanda sənaye mühüti ətrafında mərkəzləşmiş intellektual

iqtisadi mühitdir. İnnovasiya ekosisteminin son məqsədi davamlı iqtisadi inkişaf və artımdır. Jackson (2011) innovasiya ekosistemini "funksional məqsədi texnologiyanın inkişafı və innovasiyanı təmin etmək olan iştirakçılar və ya varlıqlar arasında qarşılıqlı əlaqələr" kimi ifadə edir.

İnnovasiya ekosistemlərinin əsas xüsusiyyətlərindən bəhs edən Body və Habbal (2016), ekosistem daxilində: (1) ekosistemi təşkil edən institutlar, akademik institutlar, hökumətlər, bizneslər və cəmiyyəti təşkil edən fərdlər (2) innovasiyanın əsas komponenti olan qurumlar arasındakı əlaqələr, (3) ekosistemin mürəkkəb innovasiyaları idarə etmək qabiliyyətini tədricən artıran, öyrənməni gücləndirən innovasiya dövrü (4 ) yeniliyin tətbiq oluna biləcəyi imkan sahələrini təmin edən innovasiya qatları və (5) innovasiya mədəniyyətini müəyyən edən dəyərlər və davranışların olduğunu bildirir. İnnovasiya ekosisteminə daxil olan və firmaların innovasiya fəaliyyətinə təsir edən mühit amilləri – daxili və xaric mühit amilləri olaraq iki yerə bölünür.

Firmaların innovasiya fəaliyyətinə təsir edən daxili amillərdən birincisi, innovasiya mədəniyyətidir. Gandotra N. K. (2010) innovasiya mədəniyyətini innovasiyanı gündəlik iş halına gətirən təşkilati strukturlarla və zamanla əlaqəli mədəniyyət kimi izah etmişdir (10). İnnovasiya mədəniyyəti yaradıcılığın, risk götürmənin, sahibkarlığın və bilik və yeni fikirlərin nə şəkildə təşviq edilməsini müəyyən edir. İnnovasiya mədəniyyəti, firma işçilərinin innovasiya fəaliyyətlərinin qarşısını alan deyil, dəstəkləyən davranışları inkişaf etdirməyə kömək edən normaların formalaşmasını təmin edər. Bu normaları Russel R.D. aşağıdakı şəkildə qruplaşdırmışdır (11):

- ✓ firmanın əməkdaşlarının yeni ideyalarını dəstəkləmək;
- ✓ innovasiyaya strateji təşkilati problemlərin həlli üçün əlverişli bir üsul kimi baxmaq;
- ✓ firma daxilində açıq və sərbəst məlumat mübadiləsinin olmasını təmin etmək;
- ✓ potensiyal innovasiyalar haqqında bilgisi olan, firmadan kənarındakı qruplarla yaxın əlaqələr qurmaq;
- ✓ yeni yaradıcı ideyalara açıq olmaq;
- ✓ yeni təşəbbüslərin həyata keçirilməsi üçün ağlabatan səviyyədə riski götürməyi təşviq etmək,
- ✓ yeni fikirləri irəli sürən fərdləri həm maliyyə, həm də psixoloji cəhətdən dəstəkləmək;
- ✓ mühüm və faydalı dəyişikliklərin həyata keçirilməsini dəstəkləmək.

Firmaların innovasiya fəaliyyətinə təsir edən daxili amillərdən ikincisi uyğun mükafat sisteminin istifadəsidir. Bir çox tədqiqatçılar mükafat sisteminin təsirli olması üçün hədəflərin, rəylərin və fərdi məsuliyyətlərin nəzərə alınmalı olduğunu, mükafat sisteminin yeniliyə dəstək olduğunun fərdlər tərəfindən görülməsi və mükafatların nəticələrə bağlı olmasını vurğulamışdırlar. Onların fikrincə, yeniliyin dəstəkləndiyini və mükafatlandırıldığını görən şəxslər də səylərinin bəhrəsini gördükdə motivasiya alırlar.

Üçüncü amil, innovativ layihələrin həyata keçirilməsini asanlaşdırmaq üçün rəhbərliyin istəyi ilə əlaqəli olan idarəetmə dəstəyidir. Rəhbərliyin dəstəyi fərdləri yeni ideyalar yaratmağa həvəsləndirilmək, bu yeni ideyalardan önə çıxanları tez zamanda layihələndirərək həyata keçirilmək, müxtəlif mərhələlərdə qarşıya çıxa biləcək təşkilati maneələri və daxili bürokratiyanı minimuma endirməyə yönəlik üst rəhbərliyin münasibət və davranışlarından ibarətdir. Yaradıcılıq mühiti yaratmaqla yaradıcılığın aktivləşdirilməsi və möhkəm innovasiyanın təşviqi prosesi idarəetmənin ən vacib vəzifələrindəndir. Fərdlərin öz menecerlərinə güvənməsi və onların arxasında rəhbərliyin dəstəyinin olduğunu hiss etməsi innovativ mühitin yaranmasına töhfə verir.

Yenilikçi fəaliyyətlər üçün uyğun mənbələrin (vaxt, pul, dövlət dəstəyi və s.) mövcudluğu və istifadə etmək dördüncü amil hesab olunur. Təşkilatlarda işçilərə vaxt ayırmaqla bağlı imkanlar rəhbərliyin əlində olmasına rəğmən, maliyyə mənbələrinin yaradılması yalnız şirkətlərin gəlirliliyi və xarici dəstəklə təmin oluna bilən mənbələrdir.

Beşinci amil yüksək dərəcədə muxtariyyət təmin edən təşkilati quruluşdur. Fərdlərə bəzi sərbəstliklərin verilməsi, onların hərəkət azadlığını artıracaq və yaradıcı düşüncələrinin hərəkətə keçməsini təmin edəcək. Şirkət daxilində fərdi muxtariyyət işçilərin səylərini təkmilləşdirməyə, yeni ideyalar yaratmağa və bu ideyaları uğurla həyata keçirməyə kömək edir.

Son amil risk etmək və səhvlərə dözmək istəyidir. Müvəffəqiyyətli və davamlı bir yenilikçi mədəniyyət yaratmaq üçün işçilərin risk almalarına dəstək olunmalı, fəaliyyət sahələrini müəyyən etməyə kömək edəcək, inamla edə biləcəkləri risklərin səviyyəsindən xəbərdar edilməlidir. Rəhbərlərin İşçilərin

yaxşı niyyətli səhvlərindən yaranan itkilərə dözmək və bunu bir öyrənmə fürsəti olaraq qəbul edilməsi, yenilikçilik və yaradıcılıq mədəniyyətini inkişaf etdirilməsi üçün zəruri təcrübələrdir.

Xarici amillər isə üç qrupa bölünür: digər firmalarla əməkdaşlıq, məlumat mərkəzləri ilə əlaqələr və maliyyə mənbələrindən və ya dəstək mexanizmlərindən istifadə. Bu amillər ilə bağlı aparılan araşdırmalarda, təchizatçılar, iş ortaqları və müştərilərlə qurulan əməkdaşlıq mühitinin firmaların innovasiya fəaliyyətində çox əhəmiyyətli bir yeri olduğu qeyd olunur. Məlumat əldə etmək və paylaşmaqla məşğul olan firmaların universitetlərlə əlaqələri sayəsində bilik və texnologiya transferi təmin edə biləcəyi ifadə edilir.

Əvvəldə də qeyd edildiyi kimi, innovasiya ekosisteminin ən vacib iştirakçısı dövlətdir. Tənzimləmələr, təşviqlər və dəstəklər ekosistem oyunçularına birbaşa təsir edir. Dövlət mexanizmləri olmadan bəzi sahələrdə texnologiyanın inkişafı və ya ötürülməsi mümkün deyil. Digər tərəfdən, regional inkişaf fərqlərinin aradan qaldırılması və inkişaf edən sektorların dövlət tərəfindən idarə edilməsi lazımdır. Dövlətlər eyni zamanda innovasiyaların və texnologiyadan faydalanan və alıcısı olaraq bazarlara təsir etmək gücünə malikdir. Qlobal rəqabət mühiti dövlətləri və şirkətləri sıx əməkdaşlıq etməyə məcbur edir.

İnkişaf etmiş ölkələrin təcrübəsinin öyrənilməsi nəticəsində məlum olur ki, bunun üçün ölkəmizdə «Milli innovasi Sistemi»nin (MİS) konsepsiyası hazırlanmalıdır. Bu cür konsepsiyalar bir çox ölkələrdə müxtəlif variantlarda və müxtəlif adlarda həyata keçirilməkdədir. Ümumi halda MİS-nin konsepsiyasında müəssisələrin innovasiya əsasında rəqabətinin təşkil edilməsi, sahibkarlığın elmi əsaslarla idarə olunması və istiqamətləndirilməsi kimi zəmin və şərtlər mühüm yer tutur. İİƏT-in müəyyənliyinə görə "Bir ölkədə innovasiya və texnologiyanın yayılma sürətinə və istiqamətinə təsir edən bazar və qeyri-bazar institutları "Milli İnnovasiya Sistemi”ni təşkil edir". Onuda qeyd etmək lazımdır ki, respublikamızda bu vaxta qədər innovasiya fəaliyyətinin inkişafına təkan verəcək “Milli innovasiya sistemi” hələ tam formalaşmamışdır.

Ölkə sənayesinin innovasiya potensialının inkişafı və ondan istifadəsi səviyyəsi innovasiya infrastrukturunun inkişafı səviyyəsi ilə bilavasitə əlaqədardır. Mükəmməl innovasiya infrastrukturu şəbəkəsinin mövcudluğu sənayenin bu və ya digər sahəsində innovasiya fəallığının təmin olunmasının mühüm şərtlərindəndir. Məlumdur ki, dünyanın inkişaf etmiş ölkələrində innovasiya infrastrukturunun inkişafında, elmi-texniki yeniliklərin təsərrüfata tətbiqində texnoparklar mühüm rol oynayır. Texnoparkların yaradılmasında əsas məqsəd biliklərin və ixtiraların texnologiyalara, həmin texnologiyaların isə kommersiya məhsuluna çevrilməsi, tədqiqatlara yönəldilmiş milli xərclərin səmərəliliyinin yüksəldilməsi, kiçik elmtutumlu sahibkarlıq sektoru vasitəsi ilə texnologiyaların sənayeyə ötürülməsi, elmtutumlu müəssisələrin formalaşması və onların bazarda təşəkkülü, elmtutumlu biznes sahəsində müəssisələrin dəstəklənməsi, sənayenin struktur yenidənqurulması, regional qeyrimütənasib inkişaf səviyyəsinin azalması, məşğulluq probleminin qismən həlli, yüksək texnologiyalar sahəsində elmi-texniki nailiyyətlərin sürətli tətbiqidir. (3. səh 7). Texnologiya yönümlü şirkətlərin texnoparklarla birləşməsi və sinerjinin yaradılması regionda sahibkarlıq və innovativ mədəniyyətin inkişafını təmin edir. Qeyd etdiyimiz kimi firmaların texnoparklarda fəaliyyət göstərməsində əsas məqsəd araşdırma və inkişaf fəliyyətinə istiqamətlənməsidir. Bu konteksdə araşdırmalar ümumiyyətlə 3 qrupda nəzərdə keçirilə bilər:

**İnnovasiya-inkişaf yönümlü texnoparklar** onlar yeni texnologiyalar yaratmaqla sektoral innovasiyaları inkişaf etdirməyə və əsas tədqiqat nəticələrini həyata keçirmək üçün universitet-tədqiqat institutunun əməkdaşları ilə əməkdaşlığa üstünlük verirlər. Bu Texnoparklar yeni texnologiya yönümlü şirkətlər yaradır. İnnovasiya yönümlü firma və ya texnoparklar məhsul və ya prosesdə yeniliklər edərək, araşdırma və inkişaf nəticələrini kommersiyalaşdırmaq məqsədi daşıyır. Onlar rəqabətqabağı tədqiqatlar və fundamental tədqiqatlarla maraqlanmırlar.

**Araşdırma və inkişaf yönümlü texnoparklar** isə sənaye texnologiyalarının inkişafı və təkmilləşdirilməsi üzərində işləyirlər. Bu texnoparklar bölgədəki firmaları özlərinə cəlb edərək onların araşdırma və inkişaf prosesində iştirak etmələrini təmin etməkdə və həm biliyə əsaslanan fəaliyyətlərə, həm də mövcud tətbiq sahələrinə çata bilir. Belə texnoparklar həm də universitetlərin və tədqiqat institutlarının ətrafında yerləşir.

**İstehsal yönümlü texnoparklar** isə daha çox regional istehsal sahələri yaratmaqla iqtisadi inkişafa töhfə verir. Belə texnoparklar ümumiyyətlə texnologiya yönümlü məhsullar istehsal edirlər. Bu məhsullar yüksək bazar potensialı olan, geniş istifadə sahəsinə sahib, yüksək əlavə dəyərli və texnologiya tutumlu məhsullardır.

Azərbaycanda son dövrlərdə innovasiya potensialının formalaşması və inkişafı sahəsində xeyli işlər görülmüşdür. Belə ki, ilk dəfə 22 dekabr 2009-cu il tarixində ölkə başçısı İ.H.Əliyevin iştirakı ilə Sumqayıt şəhərində «Sumqayıt texnoparkı»nın açılışı olmuşdur. Sumqayıt texnoparkında elektroenergetika sənayesi üçün məhsullar hazırlayacaq zavodlar, sexlər və istehsal xətləri yaradılacaqdır. Gələcəkdə də belə texnoparkların saylarının artırılması həm ümumilikdə ölkə sənayesinin və həm də onun ayrı-ayrı sahələrinin, o cümlədən də maşınqayırma sənayesi müəssisələrində innovasiya fəaliyyətinin inkişafına münbüt şərait yaradacaqdır. Hal-hazırda Respublikada texnoparklar, sənaye parklarının sayı getdikcə artır.

Texnopark strukturlarının yaradılmasında dövlətin rolu böyükdür. Dünya təcrübəsi göstərir ki, texnoparkların yaradılması üçün qanunvericilik bazasının formalaşdırılması, dövlət dəstəyi, vergi və gömrük güzəştləri, kadr hazırlığı kimi bir sıra şərtlərin yerinə yetirilməsi vacibdir. Ölkəmizdə sənaye parklarında və texnoparklarda üçün xeyli imkanlar və güzəştlər təklif olunur. Azərbaycanda qurulmuş və fəaliyyət göstərən sənaye parklarında, texnoparklarda sahibkarlara təklif olunan güzəştlər aşağıdakılardan ibarətdir: Rezident – qeydiyyata alındığı tarixdən 7 il müddətinə azaddır:

1. Gəlir vergisi – hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxs parkdakı fəaliyyətdən əldə etdiyi gəlir;
2. Mənfəət vergisi – parkdakı fəaliyyətdən əldə etdikləri gəlir;
3. Əlavə Dəyər vergisi – parkda istehsal sahələrinin tikintisi, elmitədqiqat və təcrübə-konstruktor işlərinin görülməsi və istehsal məqsədi ilə texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı (müvafiq icra hakimiyyəti orqanının təsdiqedici sənədi əsasında);
4. Əmlak vergisi – parkda olan əmlakına görə;
5. Torpaq vergisi – parkda istifadə etdikləri torpaqlara görə;
6. Gömrük rüsümü – istehsal sahələrinin tikintisi, elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin görülməsi və istehsal məqsədi ilə texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı.

Təssüflər olsun ki, hal-hazırda Azərbaycanda yaradılmış texnoparklar sənaye müəssisələrində, o cümlədəndə, maşınqayırma müəssisələrində innovasiya prosesinin aktivləşməsinə güclü təsir göstərə bilmir. Yaradılan texnoparklar və innovasiya infrastrukturunun digər elementləri (elmi müəssisələr, universitetlər və s.) arasında sıx əməkdaşlıq, informasiya mübadiləsi demək olar ki, yox dərəcəsindədir.

Məlum olduğu kimi, araşdırma və inkişaf innovasiyanın həyata keçirilməsi üçün ən vacib addımlardan biridir. Bu gün inkişaf edən texnologiya ilə firmalar texnoloji yeniliyin rəqabət mühitində onlara böyük üstünlüklər verəcəyini düşünür və bu sahəyə böyük sərmayələr qoymağa çalışırlar. Lakin əksər firmaların bu xərcləri çəkmək imkanları məhduddur. İnkişaf etmiş ölkələrdə bu cür fəliyyətlər dövlət tərəfindən dəstəklənir.

Dünya praktikasında araşdırma və inkişaf dövlət tərəfindən birbaşa və dolayı yollarla dəstəklənir. Birbaşa dəstəklər dövlətin ictimai resurslarından istifadə etməklə araşdırma və inkişaf fəaliyyəti ilə məşğul olacaq firmalara birbaşa maliyyə dəstəyini əhatə edir. Bunlar ümumiyyətlə biznesin maliyyə ehtiyaclarını ödəmək üçün qrantlar, maliyyə yardımı verilən borclar, borc zəmanətləri, nağd məşğulluq yardımları, aşağı faiz və ya faizsiz kreditlərlə həyata keçirilə bilər. Araşdırma və inkişaf və innovasiya fəaliyyətlərinə dolayı dəstək endirimlər, azadolmalar, sığorta mükafatı töhfələri və investisiya istisnaları kimi alətlərin dövlət tərəfindən istifadəsi ilə təmin edilir. Bu dəstəklər texnologiyanın istehsalı və transferində müəssisələrin yükünü yüngülləşdirsə də, o sahəyə sərmayə qoyuluşunu da həvəsləndirir. Dolayı dəstəklər dövlətin resurs ehtiyaclarını qarşılamaq məqsədilə yerli özünüidarəetmə orqanlarına, qeyri-hökumət təşkilatlarına, assosiasiyalara və fondlara köçürdüyü yardımlardır. Bu resurs transferində məqsəd adətən özəl sektoru dəstəkləməkdir.

Hesab edirik ki, Azərbaycanda sənaye müəssisələrində innovasiya fəaliyyətinin inkişaf etrilməsinin əsas istiqamətlərindən biri və əsası həmin sahədə rəqabət mühitini formalaşdırmaqdır. Çünki istənilən sahədə müəssisələr arasında rəqabət gücləndikcə innovasiya fəaliyyətini inkişaf etdirmək zərurətə çevriləcək. Bütün bunların təmin edilməsi üçün ölkədə rəqabət qanunvericiliyinin, xüsusilə də, rəqabət məcəlləsinin yaradılması vacibdir.

Respublikamızda sənaye müəssisələrinin böyük əksəriyyətində innovasiyanın inkişafına mane olan amillərdən biri də həmin müəssisələrin maddi-texniki bazasının köhnə olmasıdır. Bu müəssisələrdə

innovasiya fəaliyyətini həyata keçermək üçün onların maddi-texniki bazalarının modernləşdirilməsi zəruridir.

Müasir şəraitdə Azərbaycanda sənaye müəssisələrində innovasiyanın inkişaf etdirilməsi dövlət tərəfindən həyata keçirilən innovasiya siyasətindən aslıdır. Fikirmizcə, indiki mərhələdə dövlətin innovasiya siyasətinin aşağıdakı əsas istiqamətləri əhatə etməlidir:

- ölkədə innovasiya fəaliyyətini tənzimləyəcək hüquqi bazanın (İnnovasiya fəaliyyəti haqqında qanunun) yaradılması;
- ölkədə uzun müddətli "İnnovativ inkişaf Strategiyası"nın hazırlanması;
- innovasiya infrastrukturunun formalaşdırılması;
- ölkədə innovasiya fəaliyyətinin dəstəklənməsi sisteminin yaradılması və təkmilləşdirilməsi;
- ölkədə innovasiya sahibkarlığının inkişafı üçün əlverişli şəraitin yaradılması;
- sənaye müəssisələrində innovasiya layihələrinin reallaşdırılmasında demokratik prinsiplər əsasında dövlət-biznes əməkdaşlığının təmin edilməsi;

**NƏTİCƏ**

Hesab edirik ki, hazırkı şəraitdə ölkə sənayesində innovasiya fəaliyyətinin inkişaf etdirilməsi üçün qeyd edilən tədbirlərin həyata keçirilməsi zəruridir:

- antiinhisar qanunvericiliyi ilə rəqabətin stimullaşdırılması üçün şəraitin yaradılmasını təmin etmək; Çünki, müasir şəraitdə sağlam rəqabət müəssisələrdə innovasiya fəaliyyətinin həyata keçirilməsini zərurətə çevirir.
- ölkə sənayesinə daxili və birbaşa xarici investisiyaların axınını təmin etmək;
- ölkədə alternativ (vençur, lizinq) maliyyələşə üsullarının inkişaf etdirilməsi;
- sənaye müəssisələrində innovasiya mədəniyyətinin formalaşdırılması və inkişaf etdirilməsi;
- sənaye müəssisələrində korporativ idarəetmənin inkişafına nail olmaq; Müəssisələrdə korporativ idarəetmə inkişaf edikcə maliyyə problemlərinin həlli asanlaşır.
- sənaye müəssisələrinin maddi texniki bazasının modernləşdirilməsi; Hal-hazırda respublikamızda mövcud olan sənaye müəssisələrinin böyük əksəriyyətinin maddi-texniki bazası çox köhnədir və müasir dövrün tələblərinə uyğun deyil. Bu cür köhnə maddi-texniki baza ilə həyata keçirilən innovasiya fəaliyyəti səmərəli ola bilməz.

***İstifadə edilmiş ədəbiyyat:***


**1.** Azərbaycanda təhsil, elm və mədəniyyət. Statistik məcmuə. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı 2022

**2.** Azərbaycan Sənayesi. Statistik məcmuə. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı 2022

**3.** Nəcəfov A. Texnoparklar: kiçik sahibkarlar üçün bələdçi. Bakı 2015

**4.** Aslanlı K., İsmayıl Z., Ağayev R., Mehtiyev A. İqtisadiyyatın və ixracın diversifikasiyasının qiymətləndirilməsi. 2013

**5.** Aslanlı K. Azərbaycanda dövlətin innovasiya siyasətinin təkmilləşdirilməsi yolları. İslahat təklifləri toplusu. (Siyasət yazıları). Bakı 2017

**6.** Lopez – Claros, A. ve Mata, Y.N. (2009). The Innovation for Development Report 2009 – 2010, Palgrave Macmillan, New York.

**7.** Annoni, P. ve Kozovska, K. (2010). EU Regional Competitiveness Index, European Commission. http://easu.jrc.ec.europa.eu/eas/downloads/pdf/JRC58169.pdf.

**8.** Lopez-Claros, A. ve Mata, Y. N. (2010). The Innovation for Development Report. 2010-2011 Report. http://www.augustolopez-claros.net/docs/IDR2010_ICI_LopezClaros_Mata.pdf,

**9.** Yapar, İ. (2015). Kobilerde İnovasyon ve İnovasyonun Önemi: Kayseri İli Örneği, Yüksek Lisans Tezi, Niğde Üniversitesi Sosyal Bilimler Enstitüsü, Niğde.

**10.** Gandotra, N. K. (2010). "Innovation Culture For Sustainable Competitive Advantage". APJRBM, 1(2):51-59.

**11.** Russell, R. D. (1989). "How Organisational Culture Can Help to Institutionalise the Spirit of Innovation in Entrepreneurial Ventures". Journal of Organizational Change Management, 2(3):7- 15.

**12.** Porter M.E. The Competitive Advantage of Nations. – New York: Free Press, 1990. 855 p.

**13.** Global Innovation Index 2021. https://www.wipo.int/ edoc s/ pu bdo cs/e n/w ip o_ pu b_ gii_2021.pdf
**14.** www.northstarinnovation.com.tr

**R.A.Hashimov**
*master student, Baku Eurasian University*

**Directions of stimulation of innovation activities aimed at the development of industry in Azerbaijan**

**Abstract**

*The article is devoted to the study of directions for stimulating innovation activities aimed at the development of industry in Azerbaijan. The article explores the essence and significance of innovative development, factors influencing innovative activity in the country's industry, as well as proposals and recommendations for stimulating innovative activity in the country's industry.*

***Key words****: industry, innovation activity, investment, technopark, innovation ecosystem, national innovation system.*

**Р.А.Гашимов**
*магистрант, Бакинский Евразийский Университет*

**Направления стимулирования инновационной деятельности, направленной на развитие промышленности в Азербайджане**

**Резюме**

*Статья посвящена исследованию направлений стимулирования инновационной деятельности, направленной на развитие промышленности в Азербайджане. В статье исследованы сущность и значение инновационного развития, факторы, влияющие на инновационную активность в промышленности страны, а также предложения и рекомендации по стимулированию инновационной активности в промышленности страны.*

***Ключевые слова****: промышленность, инновационная деятельность, инвестиции, технопарк, инновационная экосистема, национальная инновационная система.*